# Peşman Olmayaq
**Bəxtiyar Vahabzadə**

Sağlam can vermişdin, Allah, sən mənə,
Bu canı mən indi viran görürəm.
İti göz vermişdin sən öz bəndənə,
İndi bu dünyanı toran görürəm.

***

Otun pıçıltısı, mehin əsməsi,
Biz zaman çatardı qulaqlarıma.
İndisə havada kəsir səs səsi,
Səsi eşidirəm, sözü yox amma.

***

Var ikən canımda gücüm, qüdrətim,
Ağlım işləməzdi dərinliklərə.
İndi nə gücüm var, nə fərasətim,
İndi əl uzadır ağlım hər yerə.

***

Axtarar gecədə gündüzü insan,
Çox zaman qədəri qədərdə görmür,
Bu da tarazlığın bir üzü, insan
İki xoşbəxtliyi bir yerdə görmür.

***

Allah, yaratdığın bu hikmətləri
Necə dərk eləyib hetran olmayaq?
Verdiyin hər şeyi alırsan geri,
Dünyadan köçməyə peşman olmayaq…

Noyabr, 2002

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: yanvar, 2004